**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ƏRƏBİYYƏ ƏNVƏR QIZI MUSTAFAYEVA**

# İŞÇİ ƏMƏK HÜQUQUNUN SUBYEKTİ KİMİ

**İxtisas 5609.01 – Əmək hüququ; sosial təminat hüququ**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2014**

**Dissertasiya işi Bakı Dövlət Universitetinin "Əmək və ekologiya hüququ" kafedrasında yerinə yetirilmişdir.**

**Elmi rəhbər:** hüquq üzrə elmlər doktoru, professor **A.M.QASIMOV**

**Rəsmi opponentlər:** hüquq üzrə elmlər doktoru, professor **Q.S.SKAÇKOVA**
hüquq üzrə fəlsəfə doktoru, dosent **N.Y.ƏSGƏROV**

**Aparıcı təşkilat:** AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Dövlət və hüquq nəzəriyyəsi, mülki hüquq və mülki proses şöbəsi

Dissertasiya işinin müdafiəsi «31» mart 2014-cü il tarixdə saat $13^{30}$ -da Bakı Dövlət Universiteti nəzdindəki FD.02.013 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ – 1143, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23, Bakı Dövlət Universiteti, I tədris binası, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat « 25 » fevral 2014-cü ildə göndərilmişdir.

**FD. 02.013 Dissertasiya Şurasının**
**elmi katibi, hüquq üzrə fəlsəfə doktoru**
**Ə.Q.MƏMMƏDOV**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı.** Çoxukladlı bazar iqtisadiyyatı, sahibkarlıq fəaliyyəti ilə məşğul olan çoxlu hüquqi və fiziki şəxslərin mövcudluğu şəraitində əməyin idarə edilməsi problemi baxımından hər bir iştirakçının, xüsusilə əmək hüququnun ən müdafiəsiz subyekti olan işçilərin hüquqi vəziyyətinin (hüquqi statusunun) dəqiq və aydın şəkildə müəyyən edilməsi olduqca önəmlidir. Heç şübhəsiz, işçi və işəgötürən müəyyən dərəcədə «antaqonistdir», onların mənafeləri isə bir-birinə daban-dabana ziddir, buna görə də işçinin hüquqi vəziyyətinin (hüquqi statusunun) dəqiq müəyyən edilməsi hüquq elminin mərkəzi problemlərindən biri və qüvvədə olan əmək qanunvericiliyinin əsas vəzifələrindən biridir.

Dünya iqtisadi böhranı ölkəmizdən də yan keçməmişdir. Buna görə də böhran şəraitində əmək sahəsində münasibətlər yaxşılığa doğru dəyişməmişdir. Lakin ölkəmizdə əmək qanunvericiliyi dinamik surətdə inkişaf edir, belə ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsində (bundan sonra qısaca olaraq AR ƏM adlandırılacaq) bazar iqtisadiyyatının reallıqlarına cavab verən məqsəd və vəzifələr ifadəsini tapmışdır, o, beynəlxalq əmək hüququnun (ilk növbədə, BƏT-in konvensiya və tövsiyələrinin), habelə MDB dövlətlərinin əmək qanunvericiliyinin mütərəqqi normativ yeniliklərinin təsiri altında dəyişir və təkmilləşir.

Azərbaycan Respublikasının 12 noyabr 1995-ci ildə qəbul edilmiş Konstitusiyası (bundan sonra qısaca olaraq AR Konstitusiyası adlandırılacaqdır) insan və vətəndaş hüquq və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsini dövlətin ali məqsədi elan etmişdir.

Əmək hüquq nəzəriyyəsində vətəndaşın ictimai-əmək münasibətləri sahəsində hüquqi statusu və işçinin hüquqi statusu fərqləndirilir (hərçənd, bu yanaşma bütün alimlər tərəfindən dəstəklənmir).

Hər bir vətəndaş əmək hüquq münasibətlərinin potensial subyekti kimi, məsələn, işə girərkən hüquqi müdafiəyə ehtiyac duyur. Lakin əmək hüququnun müdafiə funksiyasının üzərinə başlıca yük real surətdə mövcud olan əmək hüquq münasibətləri sahəsində düşür. Buna görə də görkəmli alim N.V.Vitrukun belə bir fikri ilə razılaşmalıyıq ki, vətəndaşın və yaxud işçinin hansısa ayrıca subyektiv hüququndan deyil, bütövlükdə şəxsiyyətin hüquqi statusunun müdafiəsindən söz açılmalıdır. Deməli, işçilərin hüquqi vəziyyə-

tinin (statusunun) dəqiq müəyyən edilməsi çox böyük praktik əhəmiyyətə malikdir, bu problemin nəzəri (elmi) tədqiqinin əhəmiyyəti də buradan qaynaqlanır. Lakin qeyd olunmalıdır ki, hüquqi statusun səmərəliliyi məsələsi, xüsusilə onun tərkib elementlərinin ətraflı təhlili ölkəmizin, eləcə də MDB ölkələrinin əmək hüququ elmində hələ lazımınca diqqət mərkəzində olmamışdır. Y.A.Ulyumciyev qeyd edir ki, «Rusiya əmək hüququ elmində, praktik olaraq, işçinin hüquqi statusunun səmərəliliyi problemlərinə həsr olunmuş tədqiqat yoxdur» [1]

Şübhəsiz, AR Konstitusiyası və 1999-cu il fevralın 1-də qəbul edilmiş və həmin ilin iyulun 1-dən qüvvəyə minmiş Azərbaycan Respublikasının yeni Əmək Məcəlləsi işçilərin hüquqi vəziyyətini kökündən dəyişdirmişdir. Lakin əmək sahəsində ictimai münasibətlərin yüksək dinamikliyi sürətlə sosial-əmək münasibətlərinin bütün iştirakçılarının ilkin hüquqi statusunun dəyişməsinə gətirib çıxarır. Buna görə də bütövlükdə əmək qanunvericiliyinin səmərəliliyi, onun mexanizmlərinin səmərəliliyi ilə bağlı problemlər iqtisadi böhran şəraitində yeni vüsət almışdır və israrlı şəkildə həllini tələb edir. Üstəlik, dövlətimiz sosial-əmək münasibətləri sahəsində liberal siyasət yürüdür, işəgötürənlərin və işçilərin münasibətlərinə çox qarışmamağa çalışır və hesab edir ki, bazar mexanizmləri avtomatik surətdə bütün problemləri aradan qaldıracaqdır.

Seçilmiş mövzunun aktuallığı həm yuxarıda gətirilən dəlillərlə, həm də aşağıdakı dəlillərlə təsdiqlənir.

İlk növbədə, hazırda AR ƏM-in işçinin hüquqi statusunu müəyyən edən normativ müddəalarının ətraflı elmi qiymətləndirilməsi, elmi təhlili tələb olunur. Fikrimizcə, bu zaman bilavasitə əmək hüququnun müdafiə və sosial funksiyaları ilə əlaqələndirməklə ona düzəlişlərin edilməsi zəruridir. Hər bir işçi özünün hərəkətləri ilə (öz mülahizəsinə görə) müdafiənin üsul və formalarının seçimi imkanları haqqında aydın və dəqiq təsəvvürə malik olmalıdır.

MDB ölkələrinin bəzilərinin əmək qanunvericiliyində işçinin müdafiəsinin yeni bir mexanizmi olan «özümüdafiə» kateqoriyasının meydana çıxması dövlətimiz üçün də olduqca aktualdır və qanunvericilərimiz üçün mühüm vəzifə təşkil edir. Bəlkə də işçilərin hüquqi müdafiəsinin bütün müasir üsul və formalarının cəmləşdiriləcəyi xüsusi qanunun qəbul edilməsi, işçilərin

---

[1] Улюмджиев Е.А. Правовое регулирование статуса работника: проблемы эффективности. Дис. …канд. юр. наук. М., 2009, с.5

özümüdafiəsi üsullarının tənzimləndiyi qanunun qəbul edilməsi zərurəti yetişmişdir.

Bütövlükdə hüquq elmi, o cümlədən ümumi hüquq nəzəriyyəsi və əmək hüququ elmi üçün hüquqi status kateqoriyasının özü çox problemlidir. Hüquq nəzəriyyəsində hüquqi status mürəkkəb, çoxşaxəli, çoxünsürlü, çoxaspektli hüquqi təzahür kimi müəyyən olunur. Aydındır ki, buna görə də hüquq nəzəriyyəsində onun çoxlu izahları və tərifləri mövcuddur. Analoji mənzərə əmək hüququ elmində işçinin hüquqi statusuna münasibətdə də müşahidə olunur, onun məzmununu təşkil edən tərkib hissələrinin (elementlərin) sayı məsələsi hələ də mübahisəlidir. Məhz yuxarıda qeyd olunanlar dissertasiya işinin mövzusunun seçilməsini şərtləndirmişdir.

**Tədqiqatın araşdırılma dərəcəsi.** Əmək hüququnun subyektləri ilə bağlı problemin öyrənilməsi əməkşünas alimlərin həmişə diqqət mərkəzində olmuşdur. Sovet dövründə və müasir dövrdə N.V.Bulanova, M.A.Draçuk, B.K.Beqiçev, D.Q.Zadnorluyev, L.A.Krutova, E.A.Ulyumciyev, Y.R.Tixonova, V.V.Fedin, A.İ.Tsepin, V.N.Skobelkin, O.V.Smirnov, A.K.Bezina, N.P.Çernomorçenko, A.M.Luşnikov, M.V.Luşnikova, L.A.Sırovatskaya və başqaları qeyd olunan problemin bəzi nəzəri və təcrübi cəhətlərini müxtəlif aspektdən araşdırmışlar. Ancaq təəssüf hissi ilə qeyd edirik ki, Azərbaycan Respublikasında əmək hüququnun subyekti kimi işçinin hüquqi statusu ilə bağlı problemin araşdırılmasına ayrıca tədqiqat işi həsr edilməmişdir. Həmin problemin müəyyən cəhətləri İ.İ.İsmayılov, M.B.Rəsulov, A.M.Qasımov, M.N.Əliyev, Z.İ.Cəfərov, Z.N.Dadaşov, Y.S.Əsgərli və başqaları tərəfindən yalnız əmək hüququ üzrə dərslik, dərs vəsaiti, məqalə və kommentariyalar çərçivəsində nəzərdən keçirilmişdir. Təbii ki, bu da qeyd edilən problemi hərtərəfli və dərindən araşdırmağa imkan verməmiş, ona yalnız ümumi şəkildə baxılmış və xeyli məsələlər həll edilməmiş qalmışdır. Bütün bunlar Azərbaycan Respublikasının əmək qanunvericiliyinin əmək hüququnun subyekti kimi işçinin hüquqi statusu ilə bağlı normalarının təcrübədə tətbiqi zamanı müəyyən çətinliklərin yaranmasına səbəb olur. Bu da aparılan tədqiqatın həm nəzəri, həm də təcrübi cəhətdən aktual olduğunu göstərir.

**Tədqiqatın obyektini** əmək hüququnun subyekti kimi işçinin hüquqi statusunun qanunvericiliklə tənzimlənməsi sahəsində yaranan ictimai münasibətlərin məcmusu təşkil edir.

**Tədqiqatın predmetini** isə əmək hüququnun subyekti kimi işçinin hüquqi statusunu təşkil edən struktur elementləri və onu tənzimləyən normaların məcmusu təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya tədqiqatının məqsədi sistemli yanaşma əsasında əmək hüququnun subyekti kimi işçinin hüquqi statusu ilə bağlı məsələləri kompleks şəkildə tədqiq etməkdən, qüvvədə olan əmək qanunvericiliyinin təkmilləşdirilməsi üçün konkret təklif və tövsiyələr verməkdən ibarətdir.

Göstərilən məqsədlərə nail olmaq üçün dissertasiyada qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

– əmək hüququnun subyekt tərkibinin və onların təsnifləşdirilməsinin mümkün meyarlarını müəyyənləşdirmək;

– əmək hüququnun subyektləri sistemində dövlətin yerini, əhəmiyyətini və rolunu aydınlaşdırmaq;

– ümumelmi hüquqi kateqoriya kimi hüquqi statusun ən mühüm əlamətlərini müəyyənləşdirmək;

– işçilərin konstitusion-hüquqi və sahəvi statusunu tədqiq etmək və onların sosial-hüquqi xarakteristikasını vermək;

– işçinin hüquqi statusunun strukturunu müəyyən etmək, habelə işçinin hüquqi statusunun məzmununu əmələ gətirən elementləri təhlil etmək;

– işçilərin subyektiv hüquqları, azadlıqları və qanuni mənafelərinin müdafiəsi üsullarını tədqiq etmək;

– işçilərin hüquqi statusunun daha da təkmilləşdirilməsi, bazar iqtisadiyyatı şəraitində onların vəziyyətinin köklü şəkildə yaxşılaşdırılması üçün konkret təklif və tövsiyələr işləyib hazırlamaq.

**Tədqiqatın elmi-nəzəri əsası və normativ-hüquqi bazası**. Dissertasiya yazılarkən ümumi hüquq nəzəriyyəsi üzrə alimlərdən S.S.Alekseyev, N.V.Vitruk, Y.A.Lukaşova, M.F.Məlikova, M.N.Marçenko, A.V.Stremouxov və b., əmək hüququ sahəsində alimlərdən N.Q.Aleksandrov, A.M.Qasımov, K.N.Qusov, İ.K.Dmitriyeva, A.D.Zaykin, S.A.İvanov, İ.İ.İsmayılov, İ.Y.Kiselyov, A.M.Kurennoy, Y.S.Əsgərli, V.M.Lebedev, R.Z.Livşits, A.M.Luşnikov, M.V.Luşnikova, S.P.Mavrin, A.F.Nurtdinova, Y.P.Orlovski, A.S.Paşkov, M.B.Rəsulov, V.N.Skobelkin, L.A.Sırovatskaya, O.V.Smirnov, İ.O.Sniqiryova, V.N.Tolkunova, Y.B.Xoxlov, Z.İ.Cəfərov və b. əsərlərindən istifadə olunmuşdur.

**Dissertasiyanın normativ bazasını,** ilk növbədə, Azərbaycan Respublikasının Konstitusiyası, qüvvədə olan Azərbaycan Respublikasının Əmək Məcəlləsi, Azərbaycan SSR-in 1971-ci il Əmək Qanunları Məcəlləsinin tədqiqatın vəzifələri üçün zəruri olan normaları, habelə müqayisə məqsədilə MDB dövlətlərinin Əmək Məcəllələri və s. təşkil etmişdir.

**Dissertasiya tədqiqatının metodoloji əsası.** İşdə metodoloji baza kimi idrak nəzəriyyəsinin dialektik idrak metodları əsas götürülmüş, xüsusən tarixi-hüquqi, məntiqi, müqayisəli-hüquqi, sistemli yanaşma, mücərrəddən konkretə keçmə və s. metodlardan istifadə edilmişdir. Bütün bunlar əmək hüququnun subyekti kimi işçinin sosial-hüquqi xarakteristikası ilə bağlı bir sıra nəzəri və təcrübi məsələləri yeni mövqedən nəzərdən keçirməyə, onlar barəsində qanunvericiliyin təkmilləşdirilməsinə kömək edəcək fikirlər yürütməyə imkan vermişdir.

**İşin elmi yeniliyi** onunla müəyyən olunur ki, o, Azərbaycan Respublikasının əmək hüququ elmi tarixində əmək hüququnun subyekti kimi işçinin hüquqi statusu ilə bağlı nəzəri və təcrübi problemlərin kompleks şəkildə tədqiq edilməsinə həsr edilmiş monoqrafik xarakterli ilk tədqiqat işidir.

Aparılmış tədqiqatlar nəticəsində mühüm nəzəri və təcrübi əhəmiyyətə malik olan bir sıra aktual məsələlərin həllinin yeni qaydası təklif edilir.

Müəllif tərəfindən müdafiəyə çıxarılan əsas yeni elmi müddəalar aşağıdakılardır:

1. «Əmək hüququnun subyekti» anlayışı yeni, müasir mövqedən təhlil olunur. Dissertant əməkşünas alimlərin fərqli mövqelərinin ümumiləşdirilməsi nəticəsində belə bir nəticəyə gəlir ki, əmək hüququnun subyektləri qismində əmək qanunvericiliyinin normaları ilə tənzimlənən fərdi ictimai-əmək münasibətlərinin və əmək hüququ sahəsinin predmetini təşkil edən onlarla bilavasitə bağlı olan digər münasibətlərin iştirakçıları çıxış edirlər.

2. Hüquq subyektlərinin, o cümlədən əmək hüququ subyektlərinin elmi ədəbiyyatda mövcud olan müxtəlif təsnifatları təhlil edilmişdir. Dissertant belə bir nəticəyə gəlir ki, AR ƏM üçün əmək hüququnun bütün subyektlərinin aşağıdakı dörd qrupa bölündüyü təsnifat daha məqsədəuyğundur: birinci qrupun tərkibinə sistemyaradıcı subyektlər, ikinci qrupun tərkibinə törəmə subyektlər, üçüncü qrupun tərkibinə ümumi və xüsusi səlahiyyətli orqanlar, nəhayət, formalaşmaqda olan dördüncü qrupun tərkibinə isə korporativ təşkilatların əmək müqaviləsi bağlamadan işləyən üzvləri daxildir.

Dissertant qüvvədə olan AR ƏM-in normalarına əsaslanaraq, aşağıdakı əsas (başlıca) subyektləri fərqləndirmişdir: 1) müəssisə (3-cü maddənin 1-ci bəndi); 2) işçi (3-cü maddənin 2-ci bəndi); 3) işəgötürən (3-cü maddənin 3-cü bəndi); 4) əmək kollektivi (3-cü maddənin 4-cü bəndi); 5) işçilərin nümayəndəli orqanı (3-cü maddənin 12-ci bəndi); 6) işəgötürənlərin nümayəndəli orqanı (3-cü maddənin 13-cü bəndi).

3. Sübuta yetirilmişdir ki, dövlət, eyni zamanda, əmək hüququnun subyektidir, lakin o bu keyfiyyətdə bilavasitə deyil, icra orqanlarının timsalında çıxış edir, dövlət sistemyaradıcı subyekt kimi ümumi tənzimləyici funksiyanı, ictimai münasibətlərin tənzimlənməsi funksiyasını yerinə yetirir.

4. Ümumelmi hüquqi kateqoriya kimi hüquqi statusun (hüquqi vəziyyətin) əsas konsepsiyaları nəzərdən keçirilmişdir. Dissertant hüquqi statusu iki aspektdən, birincisi, statik, ikincisi, dinamik vəziyyətdə fərqləndirməyi zəruri hesab edir və hüquq nəzəriyyəçilərinin belə bir konsepsiyasını bölüşür ki, hüquqi statusun aşağıdakı növləri fərqləndirilməlidir: şəxsiyyətin konstitusion (baza) statusu, şəxsiyyətin sahəvi statusu, şəxsiyyətin növ (xüsusi) statusu, fərdi status.

5. «İşçinin hüquqi statusu»nun anlayışını fərqli şəkildə müəyyən edən əməkşünas alimlərin əsas mövqeləri (baxışları) təhlil olunmuşdur. Ümumi dövlət və hüquq nəzəriyyəsinin əsas müddəalarını əsas götürməklə və analogiya prinsipindən istifadə etməklə, işçinin hüquqi statusunu müəyyən edərkən dissertant maksimum mümkün və eyni zamanda zəruri sayda elementə və ya tərkib hissəsinə əsaslanmağı təklif edir. Dissertant öz mövqeyini əsaslandırarkən belə hesab edir ki, həmin elementlərə aşağıdakılar aid edilməlidir:

1) işçinin (vətəndaşın) hüquqa malik olma qabiliyyəti, yəni hüquq subyektliyi (hüquq qabiliyyəti və fəaliyyət qabiliyyəti);

2) işçinin (vətəndaşın) əsas hüquqlar, azadlıqlar və vəzifələr sistemi;

3) işçinin qanuni mənafeləri;

4) hüquqi təminatlar sistemi;

5) hüquqi məsuliyyət.

6. Həm əmək qanunvericiliyindən, həm də mülki qanunvericilikdən istifadə edilməklə, əmək hüququ elminin işçilərin əmək hüquq subyektliyinin hüquqi təbiəti haqqında bəzi mübahisəli müddəaları dəqiqləşdirilir və onun ən mühüm əlamətləri təhlil olunur. Əmək hüquq subyektliyinin mahiyyətini açıqlayarkən dissertant əksər əməkşünas alimlərin belə bir fikrini bölüşür ki, əmək hüququnda hüquq subyektliyi iki əsas elementdən – hüquq subyektinin hüquq qabiliyyətindən və fəaliyyət qabiliyyətindən ibarət vahid kateqoriyadır.

7. İşçinin hüquqi statusunun əsas parametrlərinin qanunvericilikdə dəqiq təsbitinin, ilk növbədə, işçinin qüvvədə olan AR ƏM-in normalarında (9-cu və 10-cu maddələr) təsbitini tapmış əsas hüquq və vəzifələr sisteminin təkmilləşdirilməsinin aktuallığı və zəruriliyi xüsusi qeyd olunur.

AR ƏM-in 9-cu maddəsinə aşağıdakı məzmunda bəndin əlavə olunması təklif olunur: "– xidməti ezamiyyətə görə qanunvericiliklə müəyyən edilmiş ezamiyyə xərcləri normalarından az olmayan məbləğdə ezamiyyə xərclərini almaq".

8. Əmək hüququnun subyekti kimi işçinin qanuni mənafelərinin əmək münasibətlərinin hüquqi tənzimlənməsinin ümumi mexanizmində rolu və əhəmiyyəti aydınlaşdırılmışdır. Bu zaman qeyd olunur ki, bu terminin dar mənasında başa düşülən qanuni mənafelərin müdafiəsi (yaxud mühafizəsi) həm ümumi, həm də xüsusi vasitələrlə təmin olunur.

9. İşçinin subyektiv hüquqlarının realizəsinin təminatlarının təsnifatı aparılmışdır. Bu təminatlar sistemi müxtəlif meyarlardan (əsaslardan) istifadə olunmaqla müəyyən qruplara ayrılmışdır. Belə ki, onları təminatların həcmindən asılı olaraq ümumi və xüsusi təminatlara, məzmunundan asılı olaraq maddi və prosessual təminatlara, hüquqi tənzimləmə üsulundan asılı olaraq imperativ və dispozitiv təminatlara, məqsədli təyinatından asılı olaraq əmək hüquqlarının realizəsinin təminatlarına və həmin hüquqların mühafizəsinin təminatlarına ayırmaq olar.

10. İşçilərin müdafiəsi üsulları təhlil olunmuş və onların müasir tələblərdən xeyli geri qaldığı göstərilmişdir. İşçinin əmək hüquqları, azadlıqları və qanuni mənafelərinin müdafiəsi üsulları və formaları bazasının özümüdafiə kimi üsulun hesabına genişləndirilməsi təklif olunmuşdur.

11. Özümüdafiə hüquq institutunun qüvvədə olan əmək qanunvericiliyinin vasitələri sırasına daxil edilməsinin zəruriliyi barədə müddəa əsaslandırılmışdır. AR ƏM-də işçinin özümüdafiəsi də daxil olmaqla "Əmək hüquqlarının müdafiəsi üsulları və formaları" adlı xüsusi bölmənin və yaxud fəslin təsbit olunmasının məqsədəuyğunluğu əsaslandırılmışdır.

12. İşdə qüvvədə olan AR ƏM-in təkmilləşdirilməsinə yönəlmiş bir sıra digər təkliflər də əsaslandırılmış və irəli sürülmüşdür.

**Tədqiqatın nəticələrinin nəzəri və praktik əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti əmək hüququ elminin ən mühüm problemlərindən birinin işlənilməsinə müəyyən töhfə verilməsindən ibarətdir. İşdə irəli sürülmüş nəzəri xarakterli müddəalar əmək hüququnun subyekti kimi işçinin hüquqi statusu haqqında elmi-nəzəri biliklərin formalaşmasına və dərinləşdirilməsinə kömək edə bilər.

Bir sıra təklif və nəticələr yeni əmək qanunvericiliyinin işlənib hazırlanması üçün xüsusi maraq kəsb edə bilər. Tədqiqatın nəticələri ali təhsil müəssisələrinin hüquq fakültələrində əmək hüququ kursu üzrə mühazirələr

oxunarkən, habelə əmək hüququ üzrə dərslik, dərs vəsaiti, kurslar və tədris proqramları hazırlanarkən faydalı ola bilər. İşin təcrübi əhəmiyyəti ondan ibarətdir ki, burada öz əksini tapan nəticələr və verilmiş təkliflər əmək qanunvericiliyinin gələcək təkmilləşdirilməsi üçün əhəmiyyət kəsb edə, həmçinin gələcək elmi-tədqiqat işlərində, hüquq tətbiqetmə fəaliyyətində istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universitetinin "Əmək və ekologiya hüququ" kafedrasında yerinə yetirilmiş, müzakirə olunmuş və müdafiəyə tövsiyə olunmuşdur. Dissertasiyanın əsas müddəaları, nəticələr və praktik tövsiyələr nüfuzlu jurnallarda və elmi məqalə toplularında müəllifin dərc edilmiş işlərində açıqlanmış, Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən ənənəvi olaraq hər il keçirilən Doktorantların və gənc tədqiqatçıların XV (2010), XVI (2011) və XVII (2012) Respublika elmi konfranslarında, habelə BDU-nun hüquq fakültəsində 13-14 dekabr 2012-ci il tarixdə «Qloballaşma dövründə İnsan hüquqları və milli hüquq sistemləri» mövzusunda keçirilmiş Beynəlxalq elmi-praktik konfransındakı çıxışlarında və məruzələrinin tezislərində öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu** onun məqsədləri, vəzifələri və metodologiyası ilə şərtlənir. Dissertasiya girişdən, səkkiz yarımfəsli birləşdirən üç fəsildən, nəticədən və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** seçilmiş mövzunun aktuallığı əsaslandırılır, onun elmi cəhətdən işlənilmə dərəcəsi işıqlandırılır, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri müəyyən edilir, elmi yeniliyi açıqlanır və müdafiəyə çıxarılan əsas müəddalar formalaşdırılır, işin nəzəri və təcrübi əhəmiyyəti göstərilir.

**«Əmək hüququ subyektlərinin anlayışı və sistemi»** adlanan **I fəsil** üç yarımfəsildən ibarətdir.

**«Əmək hüququ subyektlərinin anlayışı və onların təsnifləşdirilməsinin əsas meyarları»** adlı birinci yarımfəsildə ümumi hüquq nəzəriyyəsi sahəsində alim mütəxəssislərin fərqli yanaşmaları nəzərdən keçirilmiş və belə bir nəticəyə gəlinmişdir ki, «hüququn subyekti» anlayışının müəyyən edilməsinə ümumi uzlaşdırılmış yanaşma mövcud deyildir.

Dissertant ümumiləşdirmə əsasında bu hüquq kateqoriyasının mahiyyət keyfiyyətlərini müəyyənləşdirməyə cəhd göstərir. Belə ki, hüquq subyektinin

hüquq sisteminin ilkin özəyi kimi, onun ilkin sistemyaradıcı elementi kimi yozumu (S.İ.Arxipov və b.) doğrudur.

«Əmək hüququnun subyekti» kateqoriyası barəsində əməkşünas alimlərin baxışları daha ətraflı surətdə təhlil olunur. Əmək hüququ elminin görkəmli nümayəndələrindən Y.P.Orlovski, V.N.Tolkunova, V.İ.Mironov və b. fikrinə əsaslanan müəllif bütövlükdə «əmək hüququnun subyekti» anlayışının məlum tərifləri ilə razılaşır. Eyni zamanda, iddiaçı yalnız əmək münasibətlərinin və onlarla bilavasitə bağlı olan, yəni törəmə münasibətlərin iştirakçılarını əmək hüququnun subyekti hesab edən alimlərin (V.N.Tolkunova və b.) fikrini bölüşmür, çünki əmək hüququnun subyektləri qismində hüquq fəaliyyət qabiliyyətinə, həm də əmək hüquq subyektliyinə malik olan bütün vətəndaşlar çıxış edirlər.

«Əmək hüququnun subyekti» anlayışını tamamilə yeni, ən müasir mövqelərdən tədqiqi və əmək hüququ sahəsində görkəmli alimlərin fərqli mövqelərinin ümumiləşdirilməsi nəticəsində belə bir nəticəyə gəlinmişdir ki, əmək hüququnun subyektləri qismində əmək qanunvericiliyi normaları ilə tənzimlənən fərdi ictimai-əmək münasibətlərinin və əmək hüququ sahəsinin predmetini təşkil edən onlarla bilavasitə bağlı olan digər münasibətlərin iştirakçıları çıxış edirlər.

Bu yarımfəsildə eyni zamanda bəzi MDB dövlətlərinin əmək məcəllələri müqayisəli şəkildə nəzərdən keçirilir və onların ümumi çatışmazlığı kimi əmək hüquq münasibətlərinin subyektlərinin hüquqi tənzimlənməsinə, yaxud başqa sözlə desək, onların hüquqi statusuna həsr olunmuş xüsusi fəsillərin (və ya bölmələrin) olmaması qeyd edilir. İddiaçı bunu əmək qanunvericiliyində boşluq kimi qiymətləndirir.

Təkcə Özbəkistan Respublikasının Əmək Məcəlləsində «Əmək hüquq münasibətlərinin subyektləri» adlı xüsusi II fəsil verilmiş, Məcəllənin 14-cü maddəsində isə əmək hüququ subyektlərinin leqal anlayışı öz təsbitini tapmışdır. Müəllif hesab edir ki, AR ƏM-də qanunvericilik yolu ilə əmək hüququ subyektlərinin dairəsinin və onların hüquqi vəziyyətinin (hüquqi statusunun) müəyyən edildiyi analoji fəslin təsbitini tapması məqsədəuyğundur.

AR ƏM-də əmək hüququ subyektlərinin dairəsini dəqiq və birmənalı şəkildə müəyyən edən və onların hüquqi statusunu (hüquqi vəziyyətini) təsbit edən xüsusi fəsil qanunverici tərəfindən verilmədikcə, biz yalnız hüquq münasibətlərinin dairəsi, ilk növbədə, fərdi əmək hüquq münasibətləri və onlarla bilavasitə bağlı olan digər hüquq münasibətlərinin dairəsi əsas götürülməklə əmək hüququnun subyektlərindən danışa bilərik. Eyni

zamanda, беля bir müddəa legitimləşdirilmişdir ki, əmək hüququnun subyektləri apriori olaraq mövcuddur və dissertant bununla hesablaşmaya bilməz.

Bu yarımfəsildə eyni zamanda əmək hüququ subyektlərinin tərkibi təhlil olunur və onların ən məşhur təsnifatları nəzərdən keçirilir. Belə ki, bəzi əməkşünas alimlər subyektlərin tərkibinə on növ daxil etdikləri (M.V.Molodtsov və S.Y. Qolovina) halda, bəziləri on ikiyə qədər subyekti fərqləndirir, A.K.Bezina əmək hüququnun subyektlərini müəyyən qruplar üzrə altı qrupa təsnifləşdirir, Y.B.Xoxlov isə bütün subyektləri iki səviyyəyə – əsas subyektlərə və yardımçı, yaxud törəmə subyektlərə ayırır.

Dissertant belə bir nəticəyə gəlir ki, subyektlərin təsnifləşdirilməsinin bütün məlum növləri ölkəmizin əmək qanunvericiliyinə də tətbiq edilə bilər. AR ƏM-in bu və ya digər subyektin xarakteristikasının verildiyi normaları ətraflı təhlil olunur. Belə ki, AR ƏM-in 3-cü maddəsində aşağıdakı subyektlər sadalanır: 1) müəssisə (3-cü maddənin 1-ci bəndi); 2) işçi (3-cü maddənin 2-ci bəndi); 3) işəgötürən (3-cü maddənin 3-cü bəndi); 4) əmək kollektivi (3-cü maddənin 4-cü bəndi); 5) işçilərin nümayəndəli orqanı (3-cü maddənin 12-ci bəndi); 6) işəgötürənlərin nümayəndəli orqanı (3-cü maddənin 13-cü bəndi).

İddiaçının fikrincə, AR ƏM-in 3-cü maddəsində sadalanmış subyektlərin tərkibi mütləq deyildir, qanunvericinin əmək hüququnun digər subyektlərini adlandırmaması onların, ümumiyyətlə, mövcud olmadığını ifadə etmir. Müəllif hesab edir ki, AR ƏM-in müvafiq bölmələrini və fəsillərini təhlil edərkən digər subyektlərin dairəsini də asanlıqla müyyən etmək olar.

Dissertantın fikrincə, subyektlərin yalnız birinci səviyyəli subyektlər və ikinci səviyyəli subyektlər kimi iki qrupa təsnifləşdirilməsi əmək qanunvericiliyinin normativ bazasının xeyli dəyişdiyi və genişləndiyi müasir dövrdə yetərli deyildir, zira ayrılıqda hər bir subyektin hüquqi mahiyyətini və rolunu açıqlamağa və anlamağa imkan vermir.

İddiaçı hesab edir ki, AR ƏM üçün əmək hüququnun bütün subyektlərinin aşağıdakı dörd qrupa bölündüyü təsnifat daha məqsədəuyğundur.

Birinci qrupun tərkibinə sistemyaradıcı subyektlər daxildir. Bunlara işəgötürənlər və işçilər aiddir. Elmi və tədris ədəbiyyatında onları bəzən əsas subyektlər, bəzən isə birinci səviyyəli subyektlər adlandırırlar. Fikrimizcə, subyektlərin bu cütlüyünü sistemyaradıcı subyektlər adlandırmaq daha düzgündür, çünki onlar əmək hüququ subyektlərinin bütün sisteminin özəyini təşkil edirlər.

İkinci qrupun tərkibinə törəmə subyektlər daxildir. İddiaçının fikrincə, bu termin yardımçı subyektlər termini ilə müqayisədə daha dəqiqdir, çünki sistemli metodologiya baxımından biz əmək hüququnun bütün subyektlərini müəyyən sistem, özü də açıq sistem kimi nəzərdən keçiririk. Subyektlərin bu qrupunun tərkibi xeyli dərəcədə əmək hüququnun predmetinə daxil olan ictimai münasibətlərin sistemi, yaxud növləri ilə müəyyən olunur.

Üçüncü qrupun tərkibinə ümumi və xüsusi səlahiyyətli xüsusi orqanlar daxildir.

Əmək hüququnun subyektlərinin formalaşmaqda olan dördüncü qrupuna korporativ təşkilatların (kooperativlər, ailə müəssisələri, kənd təsərrüfatı kooperativləri və s.) əmək müqaviləsi bağlamadan işləyən üzvlərini aid etmək olar.

**«Dövlət əmək hüququnun subyektləri sistemində»** adlanan ikinci yarımfəsil əmək hüququnun subyekti kimi dövlətin xarakteristikasına həsr olunmuşdur. Keçmiş SSRİ şəraitində bütün müəssisələr, idarələr, təşkilatlar dövlət hüquqi şəxsləri idi, yəni dövlətin mülkiyyətində idi. Buradan belə birmənalı nəticəyə gəlinirdi ki, hər bir insan (vətəndaş) bu və ya digər müəssisə, idarə, təşkilatla əmək münasibətlərinə girərkən bu və ya digər dərəcədə son nəticədə dövlətlə əmək münasibətlərinə girirdi.

Təbii ki, belə konstruksiya ölkəmizdə xüsusi mülkiyyətin hökmran olduğu və xüsusi mülkiyyətə əsaslanan çoxlu müəssisələrin mövcud olduğu müasir şəraitdə işləyə bilməz.

Vətəndaşlar əmək hüquq münasibətinə girərkən dövlətin gözəgörünməz iştirakı əmək müqaviləsinin hər iki tərəfi üçün davranış qaydalarının müəyyən edilməsində ifadə olunur. Buna görə də iddia etmək üçün hər cür əsas mövcuddur ki, dövlət əmək hüquq münasibətlərinin hüquqi modelləşdirilməsi funksiyasını yerinə yetirərək, onların fərdi xarakterli faktiki realizəsini, yəni real subyektlər kimi işçi və işəgötürən arasında fərdi hüquqi əlaqəni müəyyən edir. Dövlət hüquq normalarının yaradılması yolu ilə əmək hüququnun hər bir subyekti üçün konkret hüquq və vəzifələri deyil, həm də onların hüquqi statusunu müəyyən edir.

Əmək hüququnun subyektləri sistemində müasir dövlətin rolu, yeri və əhəmiyyəti müəyyən olunaraq vurğulanır ki, dövlətin yeganə işəgötürən qismində çıxış etdiyi sosialist tipli dövlətlə müqayisədə müasir bazar iqtisadiyyatı şəraitində mülkiyyətçilərin müxtəlifliyi (mülkiyyət plüralizmi) şəraitində dövlətin aparıcı rolu istisna olunur. Lakin buna baxmayaraq, dövlət eyni zamanda əmək hüququnun subyektidir, lakin o bu keyfiyyətdə bilavasitə

deyil, icra orqanlarının timsalında çıxış edir, dövlət sistemyaradıcı subyekt kimi ümumi tənzimləyici funksiyanı, ictimai münasibətlərin tənzimləyici funksiyanı yerinə yetirir.

Bu yarımfəsildə açıqlanan materialı ümumiləşdirən dissertant hesab edir ki, bu gün dövlət əmək münasibətləri sahəsində üçlü rol oynayır.

Birincisi, hüquqi mexanizm və dövlət orqanlarının müvafiq sistemini, o cümlədən nəzarət və müdafiə orqanları sistemi yaratmaqla hüquqi tənzimləmə yolu ilə münasibətlərin bu sahəsinin idarə edilməsi funksiyasını həyata keçirir.

İkincisi, fikrimizcə, dövlət konkret əmək hüquq münasibətlərinin subyektidir, çünki bütün dövlət hakimiyyəti orqanları dövlətin adından hərəkət edərkən bu və ya digər dərəcədə əmək münasibətlərinə daxil olurlar. Belə ki, dövlət işəgötürən kimi çıxış edərək dövlət orqanları sisteminin şəxsində dövlət qulluqçularının işəgötürülməsini həyata keçirir.

Üçüncüsü, dövlət çox vaxt sosial tərəfdaşlıq münasibətlərinin iştirakçısı kimi çıxış edir (AR ƏM-in II bölməsi).

**«Hüquqi status ümumelmi kateqoriya kimi: hüquqi mahiyyəti və əsas növləri»** adlanan üçüncü yarımfəsildə hüquq nəzəriyyəsi sahəsində görkəmli mütəxəssislərin mövqeləri əsasında bu kateqoriyanın qiymətləndirilməsinə cəhd göstərilmişdir. İlk növbədə, qeyd olunmalıdır ki, hüquqi status mürəkkəb tərkibə malik olub, çoxünsürlü hüquqi kateqoriya kimi çıxış edir.

Məhz bu amil onun birmənalı olmayan izahını şərtləndirir. Alimlərin əksəriyyəti belə hesab edir ki, hüquqi statusun mahiyyətini qanunvericilikdə təsbitini tapmış hüquq və vəzifələr sistemi təşkil edir (E.A.Lukaşeva, A.Q.Berejkov, A.A.Bezuqlov, S.A.Soldatov və b.); digər alimlər (M.S.Stroqoviç, V.A.Kuçinski və b.) hüquqlardan və hüquqi vəzifələrdən başqa, hüquqi statusun tərkibinə hüquqi təminatları və məsuliyyəti də daxil edirlər. Alimlərin üçüncü qisminin fikrincə, hüquqi statusun tərkibinə onun üzərində qurulduğu prinsiplərin daxil edilməsi zəruridir (S.M.Şaxray, A.A.Knişas və b.); alimlərin dördüncü qrupu (N.V.Vitruk) hüquqi statusun sadalanan tərkib elementlərinə qanuni mənafeləri də daxil edirlər.

Elmi ədəbiyyatlarda ən mübahisəli məsələlərdən biri "şəxsiyyətin hüquqi statusu" və "şəxsiyyətin hüquqi vəziyyəti" kateqoriyalarının nisbəti məsələsidir. Çox vaxt bu iki kateqoriyanı eyniləşdirirlər və göstərirlər ki, onlar eyni mənaya malikdir. Müəllifin fikrincə, belə yanaşma hüquqi statusun elmi tərifinin nəticəsi kimi çıxış edir.

Dissertant tərəfindən ümumnəzəri konsepsiyaların öyrənilməsi шяхсиййятин hüquqi statusu və şəxsiyyətin hüquqi vəziyyətini eyniləşdirən alimlərin əksinə olaraq, onların heç də eynimənalı hüquqi təzahürlər olmadığı və tam eyniləşdirilməsinin mümkün olmadığı barədə nəticəyə gəlməyə imkan vermişdir.

Müəllif insanın hüquqi vəziyyətinin hüquqi statusdan daha geniş anlayış olduğunu qeyd edərək göstərir ki, şəxsiyyətin hüquqi vəziyyəti kateqoriyası daha geniş və tutumlu anlayış olub, həm bütövlükdə vətəndaşın konstitusion-hüquqi statusu ilə üst-üstə düşən ümumi hüquqi statusu, həm də sahəvi, o cümlədən xüsusi hüquqi statusları ehtiva edir. İddiaçının fikrincə, xüsusi hüquqi statuslar real surətdə mövcud olan hüquq münasibətlərinin bazasında yaranır. Ümumelmi hüquqi kateqoriya kimi hüquqi statusun (hüquqi vəziyyətin) əsas konsepsiyalarını nəzərdən keçirən dissertant hüquqi statusu iki aspekdən, birincisi, statik, ikincisi, dinamik vəziyyətdə fərqləndirməyi zəruri hesab edir və hüquq nəzəriyyəçilərinin belə bir konsepsiyasını bölüşür ki, hüquqi statusun aşağıdakı növləri fərqləndirilməlidir: şəxsiyyətin konstitusion (baza) statusu, şəxsiyyətin sahəvi statusu, şəxsiyyətin növ (xüsusi) statusu, fərdi status.

**«Əmək hüququnun subyekti kimi işçinin hüquqi statusunun məzmunu»** adlanan **II fəsil** beş yarımfəsildən ibarətdir.

**«İşçinin ümumi əmək hüquq subyektliyinin anlayışı və əhəmiyyəti»** adlanan birinci yarımfəsildə müəllif diqqəti mülki hüquqdan fərqli olaraq, əmək qanunvericiliyində əmək hüquq subyektliyinin tərkib hissələri olan hüquq qabiliyyəti və fəaliyyət qabiliyyəti kateqoriyalarının təsbitini tapmamasına yönəldir.

Dissertantın fikrincə, əməkşünas alimlərin bu mühüm hüquqi kateqoriyaya birmənalı olmayan münasibəti, bir tərəfdən, qanunvericinin işçilərin hüquqi parametrlərini dəqiq və birmənalı müəyyən etməsinə maneçilik törədir, digər tərəfdən isə həm hüquqtətbiqi orqanlarının, həm də əmək hüquq münasibətləri iştirakçılarının fəaliyyətini çətinləşdirir.

Hüquq qabiliyyətinin və fəaliyyət qabiliyyətinin anlayışlarına fərqli yanaşmaların, əmək hüququnda və əmək münasibətlərinin hüquqi tənzimlənməsinin ümumi mexanizmində onların funksional rolunun təhlili zamanı qeyd olunur ki, bu kateqoriyalar işçinin hüquqi statusunun əsas (başlıca) elementlərinə aiddir.

Əmək hüququna dair elmi ədəbiyyatda çox vaxt belə bir fikir səsləndirilir ki, bəzi hallarda hüquq qabiliyyəti və fəaliyyət qabiliyyəti müstəqil hüquqi təzahürlər kimi çıxış edə bilər (S.Y.Qolovina, M.V.Molodtsov və b.).

Əmək hüquq qabiliyyətini və əmək fəaliyyət qabiliyyətini vəhdətdə, ayrılmaz əlaqədə, yəni bütöv kateqoriya kimi nəzərdən keçirən alimlərin fikri ilə razılaşan müəllif hesab edir ki, bu məsələ qəti şəkildə həll olunmamalıdır, çünki reallıq həmişə bütün hüquqi konstruksiyalardan daha zəngin olur. Hüquq qabiliyyətinin və fəaliyyət qabiliyyətinin müstəqil hüquqi təzahürlər olduğu mülki hüquq kimi hüquq sahəsindən fərqli olaraq, əmək hüququ sahəsində onların hər ikisinin yaranma anı üst-üstə düşür. Vətəndaşlar (fiziki şəxslər) üçün həmin hüquqi kateqoriyaların ayrılmazlığı bununla sübuta yetirilir ki, onların yaranmış əmək hüquq münasibətinə əsasən yerinə yetirməyə borclu olduqları iş yalnız konkret işçinin əməyi ilə yerinə yetirilə bilər. Mülki hüququn subyektləri üçün buna yol verildiyi halda, əmək münasibətlərində əmək funksiyasının nümayəndə vasitəsilə yerinə yetirilməsi mümkün deyildir. Lakin hüquq elmində belə bir müddəa aksiom kimi çıxış edir ki, işçi özünün başlıca vəzifəsini (əmək funksiyasını) yalnız şəxsi əməyi ilə yerinə yetirir.

**«İşçinin əsas hüquqları və müvafiq vəzifələri sistemi»** adlanan ikinci yarımfəsil bu problemin həm nəzəri, həm də normativ aspektlərinin nəzərdən keçirilməsinə və təhlilinə həsr olunmuşdur. İşçinin hüquq və vəzifələri işçinin hüquqi statusunun əsas struktur hissələrinə (komponentlərinə) aiddir. Lakin bu elementin özü mürəkkəb olub, iki nisbətən müstəqil tərkib hissəsindən – subyektiv hüquqlar və müvafiq vəzifələr sistemindən ibarətdir.

Dissertant alimlərin subyektiv hüququn izahına fərqli yanaşmalarını təhlil edir, bütövlükdə belə bir yanaşma ilə razılaşır ki, subyektiv hüquq özünün hüquqi təbiəti etibarilə onun davranışının müəyyən edilmiş ölçüsü və növüdür, habelə işəgötürəndən bağlanmış əmək müqaviləsindən irəli gələn vəzifələrin yerinə yetirilməsini tələb etmək hüququdur (imkanıdır), işçinin zəruri hallarda dövlətin məcburetmə gücünə müraciət etmək hüququ və imkanıdır. İşçinin subyektiv hüququ hüquqi statusun elementi kimi onun sosial-əmək münasibətləri sahəsində fəaliyyət azadlığını təsbit edir.

Əmək münasibətləri sahəsində hüquqi vəzifələrin də xarakteristikası verilmiş, vəzifə anlayışının ən məşhur tərifləri və vəzifələrin təsnifatları nəzərdən keçirilmişdir. Əmək hüququ elmində A.S.Paşkov və B.F.Xrustalyov tərəfindən işlənib hazırlanmış təsnifat daha geniş yayılmışdır. Bu alimlər işçilərin vəzifələrini ümumi və xüsusi vəzifələrə ayırırlar, lakin AR ƏM-in, o

cümlədən RF ƏM-in normativ müddəalarının təhlili zamanı həmin təsnifat yetərli deyildir.

Qeyd olunur ki, subyektiv hüquq və vəzifələrin hüquq münasibətləri yaranana qədər mövcud olmuş və hüquqi faktlar əsasında yaranan, yəni hüquq münasibətinin elementi olan hüquq və vəzifələrə bölünməsi (təsnifləşdirilməsi) mübahisəlidir.

Dissertant AR Konstitusiyasının bir sıra maddələrinə istinadən hesab edir ki, subyektiv hüquq və vəzifələr konkret hüquq münasibətləri yaranana qədər də mövcud ola bilər. Əmək sahəsinə aid bir çox konstitusion hüquqları təsbit edən konstitusion normaların təhlili göstərmişdir ki, onlar beynəlxalq əmək hüququnun normativ müddəaları ilə ahəngdar surətdə uzlaşır.

İddiaçı işçilərin bilavasitə AR ƏM-də (9-cu və 10-cu maddələr) təsbitini tapmış əsas subyektiv hüquq və vəzifələrini ətraflı təhlil edir. Bu zaman qeyd olunur ki, işçinin AR ƏM-in 9-cu maddəsində sadalanmış subyektiv hüquqları sistemi AR ƏM-in 10-cu maddəsində təsbitini tapmış subyektiv vəzifələr sistemi ilə adekvat deyildir. Bundan başqa, işçinin AR ƏM-in 9-cu maddəsində göstərilmiş subyektiv hüquqların tərkibi isə əmək müqaviləsinin əsas struktur hissəsini təşkil edən vəzifələrin çərçivəsindən çox kənara çıxır. Çünki AR ƏM-in 9-cu maddəsinin tərkibinə vəzifə daşıyan tərəf qismində dövlətin çıxış etdiyi subyektiv hüquqları daxil edilmişdir. Belə bəndlərə aşağıdakıları aid etmək olar:

1) hər bir işçinin sosial müdafiə üzrə müavinətlərdən və güzəştlərdən istifadə etməklə bağlı subyektiv hüququ;

2) işsizliyə görə qanunvericiliklə müəyyən edilmiş dövlət təminatını almaq hüququ.

İddiaçı aparılmış tədqiqat nəticəsində belə bir nəticəyə gəlir ki, AR ƏM-in 9-cu maddəsində əmək müqaviləsi üzrə işçinin bütün hüquqları öz təsbitini tapmamışdır. Belə ki, işçi işəgötürənin əmri (sərəncamı, qərarı) ilə xidməti ezamiyyətə göndərilə bilər. Bu zaman işçinin ezamiyyə xərclərini almaq hüququ və onun bu hüququna müvafiq olaraq işəgötürənin ezamiyyə xərclərini ödəmək vəzifəsi yaranır. Lakin əfsuslar olsun ki, AR ƏM-in 9-cu maddəsində işçinin ezamiyyə xərclərini almaq hüququ təsbit edilməmişdir. Müəllifin fikrincə, bu AR ƏM-də mövcud olan boşluqlardan biridir və bu boşluq aradan qaldırılmalıdır. AR ƏM-dəki bu boşluğu aradan qaldırmaq üçün 9-cu maddəyə aşağıdakı məzmunda bəndin əlavə edilməsi məqsədəmüvafiq hesab edilir: “ – xidməti ezamiyyətə görə qanunvericiliklə

müəyyən edilmiş ezamiyyə xərcləri normalarından az olmayan məbləğdə ezamiyyə xərclərini almaq".

«**İşçinin qanuni mənafeləri**» adlanan üçüncü yarımfəsildə işçinin hüquqi statusunun tərkibinin struktur elementi kimi qanuni mənafe kateqoriyası nəzərdən keçirilir. İctimai mənafeyin anlayışına ümumfəlsəfi baxışdan apriori çıxış edən, habelə hüquq elmində mənafeyin izahının ən mühüm aspektlərini təhlil edən iddiaçı mənafeyin subyektiv hüquqlarla əlaqəsini inkar edərək mənafelərin hüquqdan (qanundan) kənarda yerləşdiyini iddia edən hüquqşünas alimlərin mövqeyini bölüşmür. Müəllifin fikrincə, hüquqda təsbitini tapmamış qanuni mənafelər hüquqi kateqoriya deyildir və ola bilməz.

O.V.Abramovanın fikrincə, dar anlamda qanuni mənafe neməti əldə etmək və ondan istifadə etmək üçün hüquq subyektinə verilmiş və dövlətin mühafizəsi altında olan hüquqi imkandır (icazədir).[2] İddiaçı belə yanaşma ilə razılaşaraq hesab edir ki, qanuni mənafe şəxsiyyətin (yaxud işçinin) əmək qanunvericiliyi ilə birbaşa müəyyən olunmamış, yəni subyektiv hüquq qismində təsbitini tapmamış bu və ya digər nemətdən istifadə etməklə bağlı hüquqi imkandır (icazədir).

İşçinin qanuni mənafelərinin ən tam və dolğun tərifini ilk dəfə olaraq V.V.Fedin ifadə etmişdir. Onun fikrincə, əmək hüququnun subyekti kimi işçinin qanuni mənafeləri əmək qanunvericiliyində və əmək hüququ normalarını təsbit edən digər normativ hüquqi aktlarda təsbitini tapan və ya onların ümumi mənasından irəli gələn və müəyyən dərəcədə dövlət tərəfindən təminat verilən işçinin əmək münasibətləri və onlarla bilavasitə bağlı olan münasibətlər sahəsində konkret sosial nemətlərdən istifadə etmək, habelə zəruri hallarda müdafiə üçün səlahiyyətli orqanlara və təşkilatlara müraciət etmək istəyində ifadə olunmuş hüquqi imkanlarıdır.[3] İddiaçı bu fikri tamamilə bölüşür.

Müəllifin fikrincə, hüquqi mənafe, yaxud başqa sözlə, «qanuni mənafe» nəinki hüquqda təsbitini tapmış subyektiv hüquqlarla bağlıdır, həm də onların ümumi istiqamətini, məzmununu və mahiyyətini müəyyən edir. Belə ki, AR ƏM-in 9-cu maddəsində öz təsbitini tapmış işçinin bu və ya digər subyektiv hüququndan mənafeləri kənar etsək, o, labüd surətdə əhəmiyyətsiz, «boş» sözə çevrilər. Müəllif hesab edir ki, qanuni mənafe ya bilavasitə qanunda

---

[2] Абрамова О.В. Законный интерес как категория права и специфика его проявления в трудовом праве // Журнал российского права, 2007, №8, с.12

[3] Федин В.В. Юридический статус работника как субъекта трудового права. М.: Проспект, 2005, с.189

təsbitini tapır, ya da qanunun mənasından (məzmunundan) birmənalı surətdə irəli gəlir. Buna görə də subyektiv hüququn hüquqi təbiətini aydınlaşdırarkən onda iki tərkib hissəsinin fərqləndirilməsi zəruridir: birincisi, onun forması; ikincisi, onun məzmunu. Özü də subyektiv hüququn məzmunu məhz qanuni mənafedən ibarətdir. Təbii ki, qanuni mənafe hələ hansısa sosial nemətin özünü ifadə etməyib, onun əldə edilməsi imkanı kimi çıxış edir.

**«İşçilərin subyektiv hüquqları və qanuni mənafelərinin realizəsinin təminatları»** adlanan dördüncü yarımfəsli işçilərin hüquqi statusunun elementlərindən biri kimi təminatların nəzərdən keçirilməsinə həsr olunmuşdur. İşçinin hüquqi statusunun yalnız hüquqlar və qanuni mənafelər sistemi ilə deyil, həm də bu hüquqlara uyğun təminatlar sistemi ilə müəyyən olunması tezisi əsas götürülür. Hüquqi təminatlar məsələləri, demək olar ki, həmişə əməkşünas alimlərin diqqət mərkəzində olmuş, o cümlədən monoqrafik tədqiqatlar səviyyəsində araşdırılmışdır (A.M.Qasımov, M.N.Əliyev, V.N.Skobelkin, V.N.Tolkunova, M.İ. Kuçma, O.V.Abramova, İ.V.Geyts və b.) və buna görə də demək olar ki, problem yaxşı öyrənilmişdir. Dissertant ölkəmizin əmək hüququnda qüvvədə olan təminatlar sisteminin başlıca sosial-hüquqi funksiyasını əsaslandırır. Bu zaman qeyd olunur ki, AR ƏM-də təminatların rolu və əhəmiyyəti bir qədər aşağı salınmışdır. Belə ki, AR ƏM-də bununla bağlı ayrıca fəsil yoxdur, halbuki Azərbaycan SSR 10 dekabr 1971-ci il Əmək Qanunları Məcəlləsində «Təminatlar və əvəz» adlı xüsusi VIII fəsil verilmişdi. Eyni zamanda, bir sıra MDB dövlətlərində yeni əmək məcəllələrinin qəbul edilməsi bu hüquqi instituta böyük əhəmiyyət verildiyini göstərir.

MDB üzv bəzi ölkələrin əmək məcəllərində, xüsusən də RF ƏM-də (165-ci maddə) təminatlara xeyli sayda hüquq normasını birləşdirən, hüquqi təminatların leqal tərifinin ilk dəfə ifadəsini tapdığı xüsusi bölmə həsr olunmuşdur. Dissertant hesab edir ki, bazar əmək münasibətləri şəraitində AR ƏM-də belə bir ayrıca fəsil verilməlidir, çünki son nəticədə təminatlar sistemi işçilərin maddi və digər mənafelərinin müdafiəsinə yönəlmişdir. Dissertasiya işində təminatların ən məşhur və praktik baxımdan ən önəmli təsnifatları təhlil olunur (V.N.Skobelkin, İ.K.Dmitriyeva və b.).

İddiaçının fikrincə, işçinin subyektiv hüquqlarının təminatları onların həcmindən asılı olaraq ümumi və xüsusi təminatlara, məzmunundan asılı olaraq maddi və prosessual təminatlara, hüquqi tənzimləmə üsulundan asılı olaraq imperativ və dispozitiv təminatlara, məqsədli təyinatından asılı olaraq əmək

hüquqlarının realizəsinin təminatlarına və həmin hüquqların mühafizəsinin təminatlarına ayırmaq olar.

Əmək hüququnun, demək olar ki, hər bir hüquq institutunda öz təsbitini tapmış hüquqi təminatların təhlili nəticəsində aşağıdakı nəticələrə gəlinmişdir.

Birincisi, təminatlar vətəndaşların əmək sahəsində konstitusion hüquqlarının mühafizəsinin və müdafiəsinin ən mühüm alətidir.

İkincisi, işçilərin əmək hüquqlarının hüquqi təminatlarının müxtəlif növləri onların yaranması, dəyişməsi və xitamı anı daxil olmaqla, bütün mərhələlərdə əmək hüquq münasibətlərinin normal mövcudluğunu təmin edir.

Üçüncüsü, işçilərin əmək hüquqlarının təminatları bilavasitə hüquqi materiyanın nüvəsinə daxil olduğundan, yaxud başqa sözlə, hər bir hüquq institututunun zəruri elementi olduğundan, belə bir nəticə hasil olur ki, əmək hüququnda təminatlar sistemi işçinin hüquqi statusunun ən başlıca və müstəqil elementlərindən biridir. İstehsal vasitələrinin mülkiyyətçisi olan işəgötürənlə müqayisədə əmək hüquq münasibətinin daha zəif tərəfi kimi işçi üçün əmək hüquqlarının təminatları olduqca zəruridir.

**«İşçinin məsuliyyəti onun hüquqi statusunun elementi kimi»** adlanan beşinci yarımfəsli işçinin məsuliyyətinin bəzi alimlərin (L.A.Sırovatskaya, O.B.Zaytseva və b.) iddia etdikləri kimi müstəqil kateqoriya olması, yoxsa bu hüquqi təzahürün tərkib elementi kimi işçinin hüquqi statusuna daxil olması (M.V.Molodtsov, O.V.Smirnov, V.V.Fedin və b.) barədə mübahisəli bir məsələnin açıqlanmasına həsr olunmuşdur. Bu problemin həlli məqsədilə dissertant qısaca məsuliyyətə fəlsəfi-sosioloji yanaşma və sosial məsuliyyətin tərifləri (A.M.Qasımov və b.) üzərində dayanır.

Tədricən ümumidən xüsusiyə keçən iddiaçı hüquqi məsuliyyəti ümumsosial məsuliyyətin növlərindən biri kimi xarakterizə edir, işçinin məsuliyyətini isə əmək-hüquqi məsuliyyətin bir növü kimi nəzərdən keçirir. Hüquqi məsuliyyətin hüquq subyektlərinin hüquqazidd davranışının nəticəsi, hüquq pozunsutunun mənfi nəticəsi kimi, işçinin məsuliyyətinin isə əmək vəzifələrinin yerinə yetirilməməsinə, yaxud lazımınca yerinə yetirilməməsinə görə sanksiya kimi izahı ilə razılaşan müəllif belə bir nəticəyə gəlir ki, işçinin məsuliyyəti onun hüquqi statusunun ayrılmaz elementidir və bu elementin əhəmiyyəti ondan ibarətdir ki, o, işçinin hüquqi statusunu təşkil edən elementlərin bütün sistemini özünəməxsus surətdə tamamlayır.

Bu yarımfəsildə daha sonra işçinin statut məsuliyyəti məsələsi nəzərdən keçirilir. İddiaçının fikrincə, işçinin hüquq pozuntusu törətməsi nəticəsində yaranan məsuliyyətdən fərqli olaraq, statut məsuliyyəti işçinin davranışının

qanunvericilikdə təsbitini tapmış özünəməxsus modeli, yaxud davranışıdır. Beləliklə, statut məsuliyyəti işçinin hüquqauyğun, yaxud hüquqazidd davranış faktından, əmək hüquq münasibətinin yaranması faktından əvvəl mövcud olur. Belə yanaşma müəyyən dərəcədə hüquqi statusu həm «statika» halında, həm də «dinamika» halında nəzərdən keçirən alimlərin konsepsiyası ilə uzlaşır. Buna görə də statikada, yəni əmək hüquq münasibətinin yaranmasına qədər işçinin hüquqi statusu və dinamika halında işçinin hüquqi statusu tamamilə fərqlidir.

**«İşçinin subyektiv hüquqları, azadlıqları və qanuni mənafelərinin məhdudlaşdırılması və onların müdafiəsi üsulları»** adlanan III fəsildə işçilərin əmək hüquqlarının müdafiəsinin ən mühüm nəzəri məsələləri, habelə mümkün və yolverilən məhdudiyyətləri nəzərdən keçirilir. Dissertant bir sıra konstitusion normaların təhlili əsasında, xüsusən də AR Konstitusiyanın 71-ci maddəsinə istinadən göstərir ki, əmək münasibətləri sahəsində də hüquq və azadlıqlar mütləq və qeyri-məhdud deyildir. Beləliklə, AR Konstitusiyası belə bir məşhur aksiomu təsdiqləyir ki, «cəmiyyətdə yaşamaq və cəmiyyətdən azad olmaq mümkünsüzdür».

Son vaxtlar işçilərin əmək hüquqlarının müdafiəsi məsələləri digər elmi problemlərlə yanaşı diqqət mərkəzində durur. AR Konstitusiyasının 26-cı maddəsində isə göstərilir ki, «hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır». Müəllif diqqətini həm nəzəri cəhətdən müdafiənin üsulları və formaları üzərində cəmləşdirərək alimlərin baxışlarını öyrənmiş, həm də AR ƏM-də təsbitini tapan konkret üsulları nəzərdən keçirərək bəzi MDB dövlətlərinin əmək məcəllələrinin müvafiq normaları ilə müqayisələr aparmışdir.

Alimlərin fikrincə, sözün geniş mənasında hüquqi müdafiə şəxsiyyətin hüquqlarının, azadlıqlarının və mənafelərinin qanunsuz məhdudlaşdırılmasına müqavimətdir (E.A.Lukaşeva və b.), müdafiənin məqsədi subyektiv hüquqların müdafiəsidir (S.S.Alekseyev və b.). Dissertant müasir əmək hüququnda hökmran olan (A.M.Kurennoy, S.P.Mavrin, Y.B.Xoxlov və b.) belə bir fikirlə də razılaşır ki, hüquqların müdafiəsi subyektiv hüququn həyata keçirilməsinin məcburi üsuludur, müdafiə işçinin subyektiv hüququnun həyata keçirilməsindəki maneələrin aradan qaldırılması üsuludur.

İddiaçı geniş mənada müdafiə dedikdə, əmək hüququnun müdafiə funksiyasının realizəsini başa düşən alimlərin də fikri ilə razılaşır.

Müəllifə görə əmək hüququnun sistemində və onun institutlarının məcmusunda insan və vətəndaşın konstitusion əmək hüququnun realizəsi həyata

keçirilsə də, real əmək hüquq münasibətləri sistemində işçinin mövqeyi hələ kifayət qədər yetərli deyildir, çünki işəgötürənlər əmək qanunvericiliyinin normaları ilə hesablaşmadan özlərinin üstün mövqeyindən sui-istifadə edirlər.

Dissertant belə bir amili vurğulayır ki, AR ƏM işçilərin subyektiv hüquqlarının müdafiəsinin üsullarına və formalarına həsr olunmuş xüsusi bölmə, yaxud fəsil təsbit etmir. Halbuki MDB üzv dövlətlərin, xüsusən də RF ƏM-də bu məsələni ətraflı surətdə tənzimləyən xeyli sayda normativ müddəaları təsbit edən xüsusi bölmə vardır. Belə ki, orada əsas müdafiə üsulları və onları həyata keçirən orqanlar sistemi təsbitini tapmış, ilk dəfə əmək hüquq elmində yeni kateqoriya olan «özümüdafiə»nin leqal tərifi verilmişdir. Dissertant özümüdafiənin alimlər tərəfindən təklif olunan müxtəlif təriflərini təhlil etmişdir.

İddiaçının fikrincə, AR ƏM-də xüsusi bölmənin olmaması hələ əmək hüququ sistemində bu hüquq institutunun olmadığını ifadə etmir. İşçilərin subyektiv hüquqlarının müdafiəsinin bir sıra üsulları hələ Azərbaycan SSR-in 1971-ci il Əmək Qanunları Məcəlləsində təsbitini tapmışdı. Müasir AR ƏM-də ənənəvi üsullarla yanaşı, yeni müdafiə üsulları da meydana çıxmışdır. Dissertantın fikrincə, belə üsullara işçinin təkbaşına tətil hüququ (AR ƏM-in 295-ci maddəsi), işçinin işəgötürən tərəfindən təhlükəsiz əmək şəraitinin təmin edilməməsi halında əmək funksiyasının yerinə yetirilməsindən imtinası (AR ƏM-in 230-cu maddəsi) və s. aiddir.

Lakin təkbaşına tətil kimi müdafiə üsuluna (AR ƏM-in 295-ci maddəsi) tənqidi yanaşan dissertantın fikrincə, bu normanın təcrübədə realizəsi aydın səbəblərdən sıfıra bərabərdir. İşdə işçinin əmək hüquqlarının müdafiəsi üsullarından biri olan özümüdafiə məsələlərini tədqiq edən müəllif belə bir nəticəyə gəlir ki, özümüdafiə qanunsuz və qanuni ola bilər. İşçi tərəfindən təkbaşına tətilin qanun çərçivəsində keçirilməsi (və bu faktın məhkəmə tərəfindən müəyyən edilməsi) halında əmək haqqının ödənilməsi məsələsi meydana çıxır. AR ƏM-in 283-cü maddəsinə görə, qanunverici bu məsələni aşağıdakı kimi həll etmişdir: «İşəgötürən tətildə iştirak edən işçilərin tətil dövrü üçün əmək haqqını tam və ya qismən ödəyə bilər. Əmək haqqının ödənilməsindən imtina mübahisə üçün əsas ola bilməz». İddiaçıya görə, bu norma antidemokratikdir, qanunverici tamamilə işəgötürənin tərəfində duraraq, yalnız onun mənafelərini müdafiə edir. Bu halda işçiyə münasibətdə hər hansı sosial ədalətdən və humanizmdən danışmaq olmaz. Məsələnin belə həlli zamanı təkbaşına tətil işçinin özümüdafiə vasitəsi kimi həyata keçirilə bilmir, AR ƏM-in müvafiq normativ müddəaları isə işləmir. Deməli, qüvvədə olan AR ƏM-də də işçilərin hüquqlarının özümüdafiəsi vaxtı üçün maddi təminatları məsələsi həll olunmamış qalır.

Qeyd olunanlar nəzərə alınmaqla AR ƏM-də MDB dövlətlərinin əmək qanunvericiliyi təcrübəsinə istinadən və dövlətimizin sosial-əmək münasibətlərinin müasir səviyyəsinin xüsusiyyətləri nəzərə alınmaqla "Əmək hüquqlarının müdafiəsi üsulları və formaları" adlı xüsusi bölmənin, yaxud fəslin verilməsi təklif olunur. İddiaçının fikrincə, bazar iqtisadiyyatı şəraitində ölkəmizin müasir əmək hüququnun başlıca vəzifələrindən biri əmək hüququnun predmetini təşkil edən ictimai münasibətlərin hüquqi tənzimlənməsinin çevikliyinin artırılmasıdır.

**Nəticə** hissəsində müəllif tədqiqata yekun vurur və onun əsas nəticələrini, eləcə də əmək qanunvericiliyinin təkmilləşdirilməsi üzrə təkliflərini verir.

**Dissertasiyanın mövzusu ilə bağlı müəllifin aşağıdakı elmi əsərləri nəşr olunmuşdur:**

1. Категории правового статуса (правового положения) и трудовой правосубьективности в науке трудового права// Пробелы в Российском законодательстве, Москва, 2009, № 4, с.194-197
2. Сосиал-ямяк мцнасибятляринин щцгуги тянзимлянмясинин цмум механизминдя ишчинин гануни мянафеляринин анлайышы вя ролу/ Азярбайъан Республикасынын мцстягиллийиня вя цмуммилли лидер Щейдяр Ялийевин анадан олмасынын 88-ъи илдюнцмцня щяср олунмуш «Дювлят вя щцгуг гуруъулуьунун актуал проблемляри» мювзусунда Щцгуг факцтяси профессор-мцяллим щейятинин, аспирант, диссертант вя маэистрантларын 11-ъи елми-практик конфрансынын материаллары. Бакы, 2011, с.252-253
3. Ямяк щцгугу субйектляринин тяснифляшдирилмясинин мейарлары щаггында/ Докторантларын вя эянъ тядгигатчыларын ХВ Республика елми конфрансынын материаллары. Бакы, 2011, с.381-383
4. Дювлят ямяк щцгугунун субйектляри системиндя//Бейнялхалг щцгуг вя интеграсийа проблемляри, Бакы, 2011, № 2, с.181-187
5. Ишчинин субйектив щцгугларынын, азадлыгларынын вя гануни мянафеляринин мящдудлашдырылмасы вя онларын мцдафияси цсуллары//Бейнялхалг щцгуг вя интеграсийа проблемляри, Бакы, 2011, № 3, с.176-183
6. Ишчинин мясулиййяти онун щцгуги статусунун елементи кими/ Докторантларын вя эянъ тядгигатчыларын ХВЫ Республика елми конфрансынын материаллары. Бакы, 2012, с.387-392
7. Ишчинин субйектив щцгугларынын вя гануни мянафеляринин реализясинин тяминатлары// Бейнялхалг щцгуг вя интеграсийа проблемляри, Бакы, 2012, №2, с.70-75

8. Ишчинин щцгуги статусуну тяшкил едян ясас елементлярин тяркиби щаггында/ Докторантларын вя эянъ тядгигатчыларын ХВЫЫ Республика елми конфрансынын материаллары (18-19 декабр 2012-ъи ил). Бакы, 2013, с.130-131

9. Ишчилярин субйектив щцгугларынын вя гануни мянафеляринин реаллашдырылмасынын тяминатлары щаггында мясяляйя даир/10 декабр Бейнялхалг інсан щцгуглары эцнцня щяср едилмиш «Глобаллашма дюврцндя инсан щцгуглары вя милли щцгуг системляри» мювзусунда Бейнялхалг елми-практик конфрансын материаллары (13-14 декабр 2012-ъи ил). 2 ъилддя, ЫЫ ъилд. Бакы, 2013, с.783-786

10. Ямяк щцгугунун субйект тяркиби вя онларын тяснифляшдирилмясинин ясас мейарлары// Няглиййат щцгугу, Бакы, 2013, № 1, с.198-217

11. Ишчинин цмуми ямяк щцгуг субйектлийинин анлайышы вя ящямиййяти// Няглиййат щцгугу, Бакы, 2013, № 2, с.220-230

12. Ишчинин ясас щцгуглары вя вязифяляри системи щаггында мясяляйя даир// Бейнялхалг щцгуг вя интеграсийа проблемляри, Бакы, 2013, №2 (чапдадыр)

**Мустафаева Арабия Энвер кызы**
**Работник как субъект трудового права**
**РЕЗЮМЕ**

Диссертационная работа посвящена одной из проблем науки современного трудового права – исследованию проблемы работника как субъекта трудового права.

Диссертация состоит из введения, трех глав, объединяющих восемь параграфов, заключения и списка использованной литературы. Во введении обосновывается актуальность избранной темы, освещается степень ее научной разработанности, определяются объект, предмет, цели и задачи исследования, расскрывается научная новизна и формулируются положения, выносимые на защиту, дается характеристика теоретического и практического значения работы.

Первая глава – «Понятие и система субъектов трудового права» состоит из трех параграфов. В них исследуются такие вопросы как понятие, субъектный состав трудового права и основные критерии классификации субъектов, государство в системе субъектов трудового права, а также анализируются правовая сущность и основные виды юридического статуса как общенаучная категория.

Вторая глава – «Содержание юридического статуса работника как субъекта трудового права» – включает в себя пять параграфов. Здесь автором исследуются такие вопросы, как состав основных элементов, образующие юридический статус работника, понятие и значение общей трудовой правосубъектности работника, система основных прав и обязанностей работника, законные интересы работника, гарантии реализации субъективных трудовых прав и законных интересов работников, а также ответственность работника как элемент его юридического статуса.

В третьей главе анализируются вопросы ограничения и способы защиты субъективных прав, свобод и законных интересов работника.

В заключении обобщаются результаты диссертационного исследования, делаются выводы и предложения по дальнейшему совершенствованию действующего ТК АР.

Научная новизна работы заключается в том, что она является первым монографическим исследованием в истории науки трудового права Азербайджанской Республики, посвященным комплексному анализу теоретических и практических проблем юридического статуса работника как субъекта трудового права. Теоретическая значимость работы заключается в том, чтобы внести определенный вклад в разработку одной из важных проблем науки трудового права. Выдвинутые в работе теоретические положения могут оказать содействие формированию и углублению научно-теоретических знаний о юридическом статусе работника как субъекта трудового права. Практическая значимость результатов исследования заключается в том, что отображенные в работе выводы и выдвинутые в ней предложения могут иметь значение для дальнейшего усовершенствования трудового законодательства, а также использованию в дальнейшем в научно-исследовательских работах и в правоприменительной практике.

**Mustafayeva Arabiya Anvar gizi**

**The worker as a subject of the labor law**

**SUMMARY**

The dissertational work is devoted to one of the scientific problems of the modern labor law - to research of the problem of the worker as a subject of the labor law. The dissertation consists of the introduction, three chapters combining eight paragraphs, the conclusions and the list of the used literature.

In introduction, it is substantiated the urgency of the selected theme, the degree of its scientific readiness, defined the object, the subject and the goals of the research, developed the scientific novelty and formulated the positions which are taken out on protection, and presented the characteristics of theoretical and practical value of the work.

Chapter 1 – "Concept and system of subjects of the labor law" consists of three paragraphs that investigate such questions as concept, subject structure of the labor law and the basic criteria of classification of subjects, the state of system of subjects of the labor law, and also analyzed the legal essence and principal views of the legal status as a general scientific category.

The second chapter – "Content of the legal status of the worker as the subject of the labor law" comprises five paragraphs. The author investigates such questions, as structure of the basic elements forming the legal status of the worker, concept and value of the general labor personality of the worker, system of fundamental laws and duties of the worker, legitimate interests of the worker, the guarantee of realization of the subjective labor rights and legitimate interests of workers, as well as responsibility of the worker as an element of his/her legal status.

In the third chapter, under investigation are the questions of restriction and ways of protection of the subjective rights, freedoms and legitimate interests of the worker.

The conclusion presents the results of dissertational research in general, making conclusions and offers for further perfection of the acting Labor Code of the Azerbaijan republic.

Scientific novelty of work consists that it is the first monographic research in the history of the science of the labor law of the Azerbaijan Republic, devoted to the complex analysis of theoretical and practical problems of the legal status of the worker as a subject of the labor law. The theoretical importance of work consists in bringing certain contribution to developing one of the important problems of the science of the labor law. The theoretical positions suggested in work can assist formation and deepening of scientific-theoretical knowledge of the legal status of the worker as a subject of the labor law. The practical importance of the results of research consists that the conclusions displayed in the work and the made suggestions can matter for the further improvement of the labor legislation, and also to use further in research works and in law enforcement practice.

**Çapa imzalanmışdır:** 20.02.**201**4
**Kağız formatı: 60x84 1/16**
**Həcmi: 1.5** f.**ç.v. Tir**ajı: 100

**«Qanun» nəşriyyatı**
**Bakı, Azərbaycan, AZ 1102**
**Tbilisi pros., 76**
**Tel.: (+994 12) 431-16-62; 431-38-18**

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**АРАБИЯ ЭНВЕР КЫЗЫ МУСТАФАЕВА**

# РАБОТНИК КАК СУБЪЕКТ ТРУДОВОГО ПРАВА

**Специальность 5609.01-Трудовое право;
право социального обеспечения**

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени
доктора философии по праву**

**Баку-2014**